

Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...
Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti

26 fevral 2021-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR

Azərbaycan Gəncləri Günü qeyd olunub →Səh.3

Lütfi Zadənin 100 illik yubileyinə həsr olunmuş növbəti tədbir keçirilib →Səh.3

Xalq yazıçısı Çingiz Abdullayevlə BDU tələbələri görüşdü →Səh.3

Akademik Zahid Xəlilovun xatirəsinə →Səh.4

"BDU könüllüləri" qaliblər sırasında →Səh.6

Dünya Xərçəng Gününə həsr olunmuş tədbir keçirilib →Səh.6

O, yaddaşlara xeyirxahlığı ilə həkk edildi →Səh.7

"İlin gənc alimi" müsabiqəsinin qalibləri açıqlandı →Səh.7

21 fevral - Beynəlxalq Ana Dili Günüdür →Səh.8



BDU-nun Himayəçilər Şurasının iclası keçirilib →Səh.2



Elmi Şuranın onlayn iclası keçirilib →Səh.3



"Qadınlar və qızlar elmdə" →Səh.3



BDU kollektivi şəhid məzununun ailəsini ziyarət edib →Səh.5



BDU-nun ənənəvi dərslərə gələn tələbələri: hamınızı xoş gördük! →Səh.5




## BDU-da "Xocalı soyqırımının tarixi, siyasi və hüquqi aspektləri" mövzusunda Beynəlxalq elmi konfrans keçirilib

***Fevralın 24-də Bakı Dövlət Universitetində "Xocalı soyqırımının tarixi, siyasi və hüquqi aspektləri" mövzusunda onlayn beynəlxalq elmi konfrans keçirilib. Elmi konfransda BDU-nun professor-müəllim heyəti, doktorant, magistrant və tələbələri iştirak edib.***

Faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra çıxış edən BDU-nun rektoru Elçin Babayev Xocalı soyqırımının erməni işğalçılarının xalqımıza qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin ən qanlı səhifəsindən biri olduğunu bildirib. Rektor qeyd edib ki, Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarına zidd olaraq, keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyətinin iştirakı ilə gecə saatlarında şəhərə hücum edərək azərbaycanlılara qarşı soyqırım aktını törətmişdir. Soyqırımı nəticəsində 613 nəfər dinc əhali, o cümlədən 63 uşaq, 106 qadın öldürülmüş, 8 ailə bütünlüklə məhv edilmiş, 487 nəfər yaralanmışdır. 1275 nəfər dinc sakin girov götürülmüşdür ki, onların 150-sinin taleyi hələ də məlum deyil.

Rektor Xocalı soyqırımına Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə siyasi-hüquqi qiymət verildiyini diqqətə çatdıraraq bildirib ki, bu gün Xocalı həqiqətlərinin dünyada soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Xocalı soyqırımının beynəlxalq aləmdə bütün dünya ictimaiyyətinə çatdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. 2008-ci ildən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyasına başlanılması bu istiqamətdə atılmış ən vacib addımlardandır. Xocalı faciəsi Azərbaycan tarixində, xalqımızın yaddaşında dərin iz qoyub. 29 il ötməsinə baxmayaraq faciənin acısı hələ də qəlbimizdə yaşayır. Bu faciənin unudulmaması və tarixi həqiqətlərin gənc nəsillərə çatdırılması hər kəsin, hər birimizin vətəndaşlıq borcudur.

(Ardı səh. 2)

# BDU-da "Xocalı soyqırımının tarixi, siyasi və hüquqi aspektləri" mövzusunda Beynəlxalq elmi konfrans keçirilib

*(əvvəli 1-ci səhifədə)*

**_Dünyada qəbul olunmuş beynəlxalq konvensiyalar, ümumbəşəri qanunlar Xocalı faciəsi kimi soyqırımları pisləyir, yolverilməz olduğunu bildirirlər. Azərbaycan xalqı 1948-ci il 9 dekabr "Soyqırım cinayətinin xəbərdarlıq edilməsi və cəzalandırılması" konvensiyasını rəhbər tutaraq, Ermənistan Respublikasına qarşı BMT-nin Beynəlxalq məhkəməsində iddia qaldırmaq üçün bütün hüquqi əsaslara malikdir._**

E.Babayev Ali Baş Komandanımızın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində müzəffər ordumuzun parlaq qələbəsi və əzəli torpaqlarımızın işğaldan azad olunması münasibətilə iştirakçıları təbrik edərək xalqımızın haqq savaşının Azərbaycan tarixinə qızıl hərflərlə yazılan mərhələ olduğunu bildirib. Bu gün şanlı ordumuzun torpaqlarımızın keşiyində qəhrəmanlıqla dayandığını, düşmən təcavüzünə layiqli cavab verən gücə sahib olduğunu vurğulayıb. Bu gün müstəqil Azərbaycan dövlətinin gündən-günə inkişaf edib möhkəmlənməsinin Xocalı soyqırımı kimi faciələrin bir daha baş verməməsi üçün ən etibarlı təminat olduğunu diqqətə çatdırıb.

Daha sonra İstanbul Universitetinin professoru Cüneyt Yüksel "Xocalı soyqırımı və pozulan insan hüquqları beynəlxalq hüquq perspektivində", BDU-nun Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasının professoru Nuru Məmmədov "Xocalı soyqırımı: səbəb və nəticələri", Yeni Türkiyə Strateji Araşdırma Merkezinin başqanı, professor Kamal Çiçek "Hocalı soykırımının tarihsel arka planı", Türkiyə Respublikasının İstanbul Universitetinin professoru Mustafa Budak "Türk matbuatında Hocalı soykırımı ve Türkiyenin siyaseti", BDU-nun Hüquq fakültəsinin dekanı, professor Əmir Əliyev "Xocalı soyqırımına görə beynəlxalq hüquqi məsuliyyət", Pakistan İslam Respublikasının CUI-COMSATS Universitetinin professoru Aqeela Asif "Khojaly Genoside and Kashmir issue - violation of human rights", BDU-nun Diplomatiya və müasir inteqrasiya kafedrasının dosenti Təranə Tağıyeva "Xocalı soyqırımı - insanlıq tarixinin növbəti qara ləkəsi kimi" mövzusunda məruzə ilə çıxış ediblər. Çıxışlarda Xocalı hadisəsinin səbəbləri və nəticələri, beynəlxalq hüququn norma və prinsiplərinin, insan hüquq və azadlıqlarının kobudcasına pozulması, ölkə daxilində və xaricdə Xocalı soyqırımını dünya ictimaiyyətinə çatdırmaq istiqamətində görülən işlər barədə ətraflı məlumat verilib.

Konfransda BDU-nun əməkdaşı Lalə Hüseynzadənin Xocalı faciəsinə həsr etdiyi qum kompozisiyası nümayiş etdirilib.

# "Xocalı faciəsi - insanlığa qarşı törədilmiş bəşəri cinayət"

***Fevralın 26-da Bakı Dövlət Universitetində Xocalı soyqırımının 29-cu ildönümünə həsr olunmuş "Xocalı faciəsi - insanlığa qarşı törədilmiş bəşəri cinayət" mövzusunda onlayn dəyirmi masa keçirilib.***

Tədbir başlamazdan əvvəl Xocalı soyqırımı qurbanlarının, eləcə də Azərbaycanın azadlığı, ərazi bütövlüyü və dövlət müstəqilliyi uğrunda canlarını fəda etmiş bütün şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Rektor Elçin Babayev deyib ki, Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən uğurlu siyasət nəticəsində xalqımızın yaşadığı məhrumiyyətlər geridə qalıb, Azərbaycan xalqı qalib xalqa çevrilib. Xocalı faciəsinə həsr olunmuş tədbirlər bu il başqa əhval-ruhiyyədə - qalib ölkənin vətəndaşları kimi keçirilir. Xocalıda və digər torpaqlarımızda erməni təcavüzkarlarının vəhşicəsinə həyata keçirdiyi soyqırım aktları nəticəsində həlak olan həmvətənlərimizin qisası siyasət meydanı ilə yanaşı, döyüş meydanında da alındı. Xocalı şəhidlərimizin ruhu bu gün sakitdir, şaddır. Cənab Prezidentin dediyi kimi – Xocalı qurbanlarının da qanı İkinci Qarabağ müharibəsində alınıb.

Daha sonra Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlu, İsrailin "The Jerusalem Post" qəzetinin siyasi şərhçisi, siyasi analitik Arye Qut, Moldova Respublikasının İctimai Palatasının sədri, Moldova Vəkillər Kollegiyasının üzvü Aureliya Qriqoriu, Milli Məclisin deputatı Elman Məmmədov, Milli Məclisin deputatı, BDU-nun kafedra müdiri Anar İsgəndərov, BDU-nun Tarix fakültəsinin dekanı vəzifəsini icra edən, professor İbrahim Zeynalov, Xocalı özünümüdafiə batalyonunun komandiri, Milli Qəhrəman Tofiq Hüseynovun nəvəsi – BDU-nun Hüquq fakültəsinin tələbəsi Məxmər Ələkbərzadə Xocalı soyqırımı, mənfur erməni silahlılarının törətdiyi bəşəri cinayət haqqında çıxış ediblər. Çıxış edənlər ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri kütləvi cinayətlərdən biri olan Xocalı soyqırımının məqsədi, səbəb və nəticələri, faciənin miqyası ilə bağlı bir çox tarixi faktları diqqətə çatdırıblar.

# BDU-nun Himayəçilər Şurasının iclası keçirilib

*2021-ci il 29 yanvar tarixində Bakı Dövlət Universitetinin Himayəçilər Şurasının iclası keçirilib. Himayəçilər Şurasının sədri, Azərbaycan Respublikasının təhsil naziri Emin Əmrullayevin sədrliyi ilə keçən iclasda şuranın üzvləri - Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Rəşad Nəbiyev, xalq yazıçısı Elçin Əfəndiyev, AMEA-nın vitse-prezidenti akademik İsa Həbibbəyli, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev və BP-nin Yaxın Şərq və Xəzər ölkələrində kommunikasiya və təşviqat üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli iştirak edib.*



İclasda BDU-nun rektoru Elçin Babayev məruzə ilə çıxış edərək 2020-ci ildə BDU-da təhsil, elm, innovasiyalar, sosial layihələr, beynəlxalq əməkdaşlıq sahəsində görülmüş işlər haqqında məlumat verib. Rektor BDU-da COVID-19 pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq, 2020-ci ildə tədris prosesinin təşkili, beynəlxalq ikili diplom proqramlarının fəaliyyətə başlaması, xarici mütəxəssislərin BDU-da tədris prosesinə cəlb olunması, yeni akademik mühitin yaradılması, elmi fəaliyyətin təkmilləşdirilməsi, əməkdaş və tələbələrin sosial rifahının qorunması istiqamətində görülmüş işlər haqqında məruzə edib.

Rektor BDU-da tələbə, magistrant və doktorantların bilik və bacarıqlarının artırılması üçün yaradılmış mühitin getdikcə təkmilləşdirilməsi, yeni təlim texnologiyalarının tədris prosesinə tətbiqi istiqamətində, eləcə də, kollektivin əmək şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görüldüyünü qeyd edərək, bunu ölkəmizdə aparılan sosial siyasətin, son illər elm və təhsil sahəsində həyata keçirilən çoxşaxəli siyasətin məntiqi nəticəsi olduğunu diqqətə çatdırıb.

İclasda pandemiya dövründə BDU-nun əməkdaş və tələbələrinin sağlamlığının qorunması istiqamətində uğurlu təcrübəsi, Vətən müharibəsi dövründə BDU-nun professor-müəllim və tələbə heyətinin informasiya cəbhəsində fəal mübarizə aparması, müxtəlif miqyaslı sosial layihələrdə BDU kollektivinin fəal iştirakı və s. haqqında geniş məlumat verilib.

Universitetin 5.0. inkişaf strategiyası, əsas hədəfləri, tədqiqat universiteti statusu almaq istiqamətində atılan addımlar, 2021-ci ildə perspektivdə duran məsələlər də iclasda müzakirə olunub. Himayəçilər Şurasının üzvləri BDU-nun gələcək fəaliyyətinə dair öz mülahizələrini bildirərək təkliflərlə çıxış ediblər.

# Azərbaycan Gəncləri Günü qeyd olunub

***Bakı Dövlət Universitetində 2 Fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş onlayn tədbir keçirilib.***

***Moderator, BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev dəyirmi masanı giriş sözü ilə açaraq gəncləri əlamətdar gün münasibətilə təbrik edib, ölkəmizin ictimai həyatında gənclərin fəal rol oynadığını bildirib.***

Tədbir iştirakçılarını salamlayan BDU-nun rektoru Elçin Babayev ölkəmizdə Gənclər Gününün qeyd edilməsinin, bu sahədə dövlət siyasətinin formalaşdırılmasının Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğulayıb. Rektor hələ sovet dövründə Azərbaycan gənclərinin nüfuzlu ali məktəblərdə təhsil almasında, uğurlu karyeraya nail olmalarında Heydər Əliyevin xüsusi əməyinin olduğunu qeyd edərək bu siyasətin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyinə diqqət çəkib.

E.Babayev qeyd edib ki, hər bir ölkədə gənclər cəmiyyətin aparıcı qüvvəsidir. Yarandığı gündən ölkəmizin bütün həyatında misilsiz xidmətlər göstərən Bakı Dövlət Universiteti bu gün də ölkənin ictimai-siyasi və mədəni həyatında fəal iştirak edən, dövlətçiliyin daha da möhkəmləndirilməsinə, milli şüur və düşüncə tərzinin formalaşmasına önəmli töhfələr verən, vətənpərvərlik ruhunda tərbiyə edilən yüksəkixtisaslı mütəxəssis-gənclər yetişdirir. Dövlətin gənclərə diqqət və qayğı göstərməsi Azərbaycan gəncliyində öz gücünə, istedadına inam hissini artırır.

Rektor 44 günlük Vətən müharibəsində Ali Baş Komandanımızın rəhbərliyi ilə xalqımıza parlaq qələbə sevincini yaşadan, canı və qanı bahasına ən yeni tarix yazaraq əzəli torpaqlarımızı işğaldan azad edən qəhrəman övladlarımızı da xüsusi xatırlayıb. Azad edilən torpaqlarımızda görüləcək quruculuq-abadlıq işlərində, doğma diyarımızın yenidən çiçəklənməsində gənclərimizin də iştirakının mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Sonra gənclər və idman nazirinin müavini Fərhad Hacıyev, Gənclər Fondunun icraçı direktorunun müavini Orxan Ərəbov, millət vəkilləri Sevinc Fətəliyeva və Şahin Seyidzadə, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri Pərviz Mirələmli, BDU-nun Hüquq fakültəsinin məzunu, Vətən müharibəsinin könüllü iştirakçısı Qəfər Nəzərov, Kitabxanaçılıq-informasiya fakültəsinin tələbəsi Fidan Həsənova çıxış edərək tələbə-gəncləri təbrik ediblər.

Tədbirin sonunda BDU-nun elan etdiyi 2 Fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş "İlin gənc alimi" müsabiqəsinin qalibləri elan olunub.

# Elmi Şuranın onlayn iclası keçirilib

***Fevralın 23-də Bakı Dövlət Universiteti Elmi Şurasının onlayn iclası keçirilib. İclasda BDU-nun rektoru Elçin Babayev 2020-ci ildə BDU-nun fəaliyyəti haqqında geniş məruzə ilə çıxış edib. Rektor Universitetin təhsil, elm, innovasiyalar, sosial məsələlər, beynəlxalq əlaqələr və təsərrüfat sahələrində görülmüş işlər və perspektiv planlar, qarşıda duran vəzifələr barədə şura üzvlərini məlumatlandırıb.***



2020-ci ildə BDU-da tədrisin təşkilində əldə olunan uğurlar, Universitet alimlərinin elmi nailiyyətləri, elmi-tədqiqatların nəticələri, keçirilmiş onlayn elmi konfrans, ustad dərsləri, elmi seminarlar, xarici universitetlərlə əməkdaşlıq, pandemiya dövründə Universitetin həyata keçirdiyi sosial layihələr, tələbə təşkilatlarının fəallığından bəhs edən rektor Vətən müharibəsi dövründə BDU alimlərinin informasiya cəbhəsində fəaliyyəti, BDU-nun həyata keçirdiyi akademik layihələr haqqında da ətraflı bəhs edib. BDU-da innovasiyaların dəstəklənməsi sahəsində fəaliyyətin genişləndirilməsi, ikili diplom proqramları, BDU-nun beynəlxalq əməkdaşlıq və əlaqələri, tədris prosesinin elmi tədqiqatlar və istehsalatla əlaqələndirilməsi, elm və təhsilin sənayeyə inteqrasiyasının gücləndirilməsi, tələbə, magistrant və doktorantlarda tədqiqatçılıq və peşə fəaliyyəti üçün zəruri olan praktiki bilik, bacarıq və vərdişlərin formalaşdırılması, elmi işçilərin növbəti attestasiyadan keçirilməsinin də qarşıda duran vacib məsələlərdən olduğunu diqqətə çatdırıb.

Elmi Şurada həmçinin bir sıra vacib məsələlər də müzakirə olunub. 2021-ci ilin Azərbaycanda Nizami Gəncəvi ili elan olunması ilə əlaqədar Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi istiqamətində, eləcə də Lütfi Zadənin 100 illik yubileyi ilə əlaqədar BDU-da keçiriləcək Tədbirlər Planının hazırlanması üçün komissiyaların yaradılması haqqında qərar qəbul edilib.

BDU-nun 2021-ci il üçün nəşr planı da müzakirə edilib.

Şura həmçinin Vətən müharibəsinin iştirakçısı olmuş alt qruplarda təhsil alan BDU tələbələrinin ödənişlərinin BDU büdcəsindən ödənilməsi haqqında da qərar qəbul edib.

# BDU "Yaşat" Fonduna 50 000, Qarabağ Dirçəliş Fonduna 100 000 manat ianə etdi




***Bakı Dövlət Universitetinin fevralın 4-də keçirilən iclasında rektor Elçin Babayev Elmi Şura üzvlərini bir daha tarixi qələbəmiz münasibətilə təbrik edərək, 44 günlük Vətən müharibəsi, ərazilərimizin işğaldan azad olunmasından söz açaraq Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan ordusunun zəfərinin tariximizin ən parlaq səhifələrindən olduğunu qeyd edib.*** O, vətən müharibəsində qazanılan parlaq qələbənin ölkənin uğurlu inkişafının nəticəsi olduğunu vurğulayaraq Azərbaycanın bu möhtəşəm zəfərinin Ali Baş Komandanın müdrik qərarları, rəşadətli ordumuzun gücü və xalqımızın sarsılmaz həmrəyliyi sayəsində qazandığına diqqət çəkib. Rektor E.Babayev Vətən müharibəsi dövründə müəllim və tələbələrin informasiya müharibəsində fəal iştirak etməsindən danışıb, müharibədə iştirak edən BDU-nun məzun və tələbələrindən söz açıb, şəhidlərinin xatirəsinin daima əziz tutulacağını vurğulayıb.

Elmi Şuranın iclasında ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədi ilə yaradılan YAŞAT Fonduna 50 min manat və işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasına dəstək məqsədilə yaradılmış Qarabağ Dirçəliş Fonduna 100 min manat ianə edilməsi haqqında qərar qəbul edilib.

# BDU tələbələri xalq yazıçısı Çingiz Abdullayevlə görüşdü

***BDU Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) təşkilatçılığı ilə "Gənc İntellektuallar Məktəbi" layihəsi çərçivəsində fevralın 5-də xalq yazıçısı Çingiz Abdullayevlə onlayn görüş keçirilib.***

Görüşü giriş sözü ilə açan BDU THİK sədri Hacıbaba Mustafayev tanınmış yazıçı Çingiz Abdullayevi salamlayıb və ona dəvəti qəbul etdiyi üçün təşəkkürünü bildirib. Tədbirin moderatoru BDU Jurnalistika fakültəsinin sosial məsələlər və tələbələrlə iş üzrə dekan müavini Samir Mirzəyev THİK xəttilə keçirilən müxtəlif layihələr, o cümlədən "Gənc İntellektuallar Məktəbi" barədə məlumat verərək, layihənin əsas məqsədinin tələbə-gənclərin intellektual səviyyələrinin yüksəldilməsi olduğunu vurğulayıb. O, görüşün baş tutduğu günün bir neçə əlamətdar hadisə ilə yadda qaldığını, o cümlədən Beynəlxalq Kitab Bağışlama Günü olduğunu qeyd edib. Məhz belə bir gündə Azərbaycanın Xalq Yazıçısı Çingiz Abdullayevlə Bakı Dövlət Universitetinin birinci kurs tələbələrindən bir qrupunun görüşünün rəmzi məna daşıdığını diqqətə çatdırıb.

Sonra xalq yazıçısı Çingiz Abdullayev öz həyat və yaradıcılığının maraqlı məqamları, həyat təcrübəsi haqqında danışıb, Azərbaycan və dünya ədəbiyyatından nümunələr gətirib, bədii ədəbiyyatla bağlı fikirlərini bölüşüb, özünün də Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin məzunu olmasından məmnunluqla bəhs edib. O, gənclərin intellektual inkişafı üçün kitab oxumağın xüsusi əhəmiyyət daşıdığını bildirib.

Sonda Ç.Abdullayev tələbələrin çoxsaylı suallarını cavablandırıb.

# "Qadınlar və qızlar elmdə"

***2021-ci il 11 fevral tarixində Sosial elmlər və psixologiya fakültəsi və Biologiya fakültəsinin birgə təşkilatçılığı ilə "Elmin inkişafında Bakı Dövlət Universitetinin qadın müəllimlərinin rolu" mövzusunda seminar keçirib.***



Tədbirdə Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrasının müdiri professor Rəbiyyət Aslanova "Qadınlar və qızlar elmdə" Beynəlxalq gününün əhəmiyyətindən bəhs edib. Daha sonra Psixologiya kafedrasının professoru Elnarə Şəfiyeva cəmiyyətin inkişafında qadın alimlərin rolu, Biologiya fakültəsinin professoru Hökümə Quliyeva biologiya elmləri sahəsində çalışmış görkəmli elm xadimləri haqqında, dosent Sevda Tahirli Azərbaycanda elmin inkişafında xüsusi rolu olan qadın alim və müəllimlərdən, onların gənc nəslin formalaşmasında əvəzsiz xidmətlərindən söz açıb.

# Lütfi Zadənin 100 illik yubileyinə həsr olunmuş növbəti tədbir keçirilib

***Fevralın 11-də Mexanika-riyaziyyat fakültəsi BDU Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə dünya şöhrətli alim Lütfi Zadənin 100 illik yubileyinə həsr olunmuş onlayn tədbir keçirilib.***

Mexanika-riyaziyyat fakültəsi TGT-nin sədr müavini Sevinc Pənahova tədbirdə adı dünyanın elm tarixinə qızıl hərflərlə həkk olunmuş Lütfi Zadənin həyatı, fəaliyyəti, elmi tədqiqatları və kəşfləri haqqında çıxış edərək məşhur alimin tədqiqatlarının dünya elminə verdiyi töhfələrdən bəhs edib.

Tələbələrin çıxışlarında alimin ardıcıl tədqiqatlarının nəticəsi olaraq irəli sürdüyü qeyri-səlis məntiq nəzəriyyəsinin müxtəlif elm sahələrinin inkişafına təkan verdiyi vurğulanıb. Bu nəzəriyyənin yeni intellektual texnologiyalara güclü təsir göstərdiyi, müasir idarəetmə və informasiya-kommunikasiya sistemlərinin əsaslarının formalaşdırılmasında mühüm rol oynadığı bildirilib.

Tədbirdə Lütfi Zadəyə həsr olunmuş fotoslayd və videoçarx nümayiş etdirilib.

Tədbirin sonunda Lütfi Zadənin 100 illik yubileyinə həsr olunmuş məntiq müsabiqəsinin qalibləri (Qəniyeva Leyla Elçin qızı - Mexanika-riyaziyyat fakültəsi; Riyaziyyat müəllimliyi ixtisası, I kurs, Əmirova Aysel - Mexanika-riyyaziyyat fakültəsi, Riyyaziyyat müəllimliyi ixtisası I kurs tələbəsi) müəyyən edilib. Qaliblərə Tələbə Gənclər Təşkilatının sertifikatı təqdim edilib.

# Akademik Zahid Xəlilovun xatirəsinə

## Görkəmli riyaziyyatçı-alim, akademik Zahid Xəlilovun vəfatından 47 il ötür

***Zahid İsmayıl oğlu Xəlilov 14 yanvar 1911-ci ildə Tiflis quberniyasının Ekaterinenfeld nahiyəsinin (indiki Bolnisi rayonu) Saraclı kəndində anadan olmuşdur. Orta məktəbi və Türk Pedoqoji Texnikumunu Tiflisdə bitirdikdən sonra 1929-cu ildə Bakı Dövlət Universitetinin riyaziyyat şöbəsinə daxil olmuş, 1930-1934-cü illərdə Universitet bağlandığına görə ali təhsilini Azərbaycan Pedaqoji İnstitutunda başa vuraraq yenidən Tiflisə qayıtmış və Dəmir yolu Nəqliyyatı Mühəndisləri İnstitutunda işləmişdir.***



1937-ci ildə Tiflisdə Riyaziyyat İnstitutunun aspiranturasına daxil olmuş, 1940-cı il aprelin 22-də Tbilisi Dövlət Universitetində məşhur riyaziyyatçı, professor S.Berqmanın rəhbərliyi altında “Kleb məsələsi və onun ümumiləşməsi” mövzusunda dissertasiya işini müdafiə edərək Qafqaz türkləri arasında ikinci (İbrahim İbrahimovdan sonra) fizika-riyaziyyat elmləri namizədi - alimlik dərəcəsi alan şəxsdir.

Elə həmin ildə Azərbaycan Dövlət Universitetinə dəvət olunub. Beləliklə, o, ömrünü həmişəlik Azərbaycan və onun elmi ilə bağlamışdır. 1942-ci ildən SSRİ EA-nın Azərbaycan filialına keçmiş, 1945-ci ildə Azərbaycan Elmlər Akademiyası yarandıqda isə onu fizika və riyaziyyat sektorlarının rəhbəri təyin olunmuşdur. Z.Xəlilov 1946-cı ildə “Sərhəd məsələlərinin parametrdən asılılığının tədqiqi” mövzusunda dissertasiyasını müdafiə edərək 35 yaşında Azərbaycanın ilk fizika-riyaziyyat elmləri doktoru olmuşdur.

Artıq 1950-ci illərin əvvəllərindən başlayaraq Zahid Xəlilovun elmi əsərləri Moskva, Leninqrad, Kiyev, Tbilisi kimi mərkəzlərdə, eləcə də Amerika Birləşmiş Ştatlarında çap olunaraq ona şöhrət gətirmişdir. Zahid müəllim nəinki Azərbaycan funksional analiz məktəbinin banisi, həm də SSRİ-də bu sahənin ideoloqlarından biri olmuşdur. Xüsusi qeyd etmək lazımdır ki, SSRİ-də ilk “Funksional analiz” dərsliyini 1949-cu ildə o yazmışdır. Zahid Xəlilov ilk Azərbaycanlı alimidir ki, ömrünün sonuna qədər Ümumittifaq miqyaslı “Funksional analiz” jurnalının redaksiya heyətinin üzvü olmuşdur.

Z.Xəlilov 1950-ci ildə Riyaziyyat və Mexanika İnstitutunun direktoru təyin edilmiş, 1955-ci ildə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. Akademik Z.Xəlilov 1957-1959-cu illərdə Akademiyanın vitse-prezidenti, 1962-1967-ci illərdə isə prezidenti olmuşdur. 1967-ci ildən ömrünün sonuna qədər isə özünün yaratdığı Riyaziyyat və Mexanika İnstitutuna rəhbərlik etmişdir.

Görkəmli Azərbaycan riyaziyyatçısı, Əməkdar elm xadimi, akademik Z.Xəlilov SSRİ Ali Sovetinə və Millətlər Sovetinə deputat seçilmiş, “Qırmızı Əmək Bayrağı”, “Şərəf Nişanı” ordenləri ilə təltif olunmuş, bir çox başqa mükafatlara layiq görülmüşdür. 1974-cü il fevralın 4-də 63 yaşında vəfat etmiş, Fəxri xiyabanda dəfn edilmişdir.

Əsas tədqiqatları funksional analiz, onun İnteqral və diferensial tənliklərə tətbiqi, bütöv mühit mexanikası, avtomatik idarəetmə sisteminin riyazi nəzəriyyəsi, tətbiqi riyaziyyat və riyaziyyatın başqa sahələrinə aiddir. Sovet dövrü Azərbaycanın ilk riyaziyyatçılarından biri olan alim Azərbaycanda funksional analiz məktəbinin əsasını qoymuşdur. Poliharmonik tənliklər sistemi üçün ümumi sərhəd məsələsini həll etmiş, dəyişənlərinə ayrılmayan qarışıq məsələlərin həlli üçün Furye üsulunun analoqunu, qarışıq tipli model tənlikləri üçün şəbəkə üsulunu vermişdir. O, mücərrəd sinqulyar operatorlar nəzəriyyəsini yaratmış, yeraltı hidromexanikanın neft və qaz yataqlarının işlənməsində tətbiq olunan bir çox məsələnin həllini vermiş, Banax fəzasında öz-özünə qoşma olmayan operatorun spektrini tədqiq etmişdir.

Yüksəkixtisaslı kadrların hazırlanmasında böyük xidməti olan alim Azərbaycan funksional analiz məktəbinin banisi olmaqla yanaşı, həm də SSRİ-də ilk “Funksional analiz” dərsliyinin müəllifidir. O, Azərbaycan Riyaziyyatçılar Cəmiyyətinin prezidenti seçilmişdir.

# BİZİM NADİR MÜƏLLİM...

***Onu tələbə vaxtımızdan tanıyırıq.1990-cı illər idi. Gərgin dövrlər yaşayırdıq. Kecid dövrünün gətirdiyi əksikliklərin, maddi-mənəvi natarazlıqların fonunda tarazlığını itirməyən tək-tək sayıla biləcək insanlardan biridir Nadir müəllim.***



***Dəyərli müəllim, səmimi insan, böyük alim, təcrübəli pedaqoq Nadir İsmayılovun 65 illik yubileyinə...***

O, hec vaxt daxili gərginliyini üzünə yansıtmayan, üzü təbəssümlü, xoş niyyətli, hər kəsə fərdi yanaşmağı bacaran, cətinlik yox, asanlıq yaradan bir müəllim oldu bizə. Dəyərli məsləhətlərini, öyüdlərini hec kimdən əsirgəmədi. Sıxıntılı kecən, ağır və yorucu, yeknəsəq mühazirə dərslərindən soluğu Nadir müəllimin maraqlı, yaddaqalan, təkrarolunmaz mühazirələrində alan, tənəffüs zənginin çalındığının fərqində olmayan tələbələrinin fikrini ifadə etməyə çalışıram bu cümlələrdə.

Və budur... Böyük bir zaman keçib, zaman aşımına uğramayan böyük pedaqoqun - onun tələbəsi olmaq şərəfini yaşayan və bunu fəxarətlə daşıyan yüzlərlə tələbəsinin onun haqqında bir ifadə forması var: bizim Nadir müəllim.

Belə bir ehtiram ifadəsi sövq-təbii insan fitrətindən irəli gələn aliliyə, səmimiliyə, dürüstlüyə, müdrikliyə olan rəğbətinin təcəllisidir.

Nadir müəllimin dəyərli elmi məsləhətləri, həyat təcrübəsinin əxz etdiyi müdrik fikirləri ilə həyatını nurlandıran yüzlərlə insan tanıyıram. Əgər həqiqətən də ən çətin situasiyalarda - istər elmi kontekstdə, istər təcrübi həyatda bir çətinliyin, bir sualın olduğu zaman bunu kimə isə ünvanlaya bilirsənsə və səni qane edən dolğun bir cavab alırsansa, deməli, sən əsil və əsl ziyalı tanıyırsan. Bizim əziz Nadir müəllim kimi...

Nadir müəllimin həyatından, yaradıcılığından, elmi fəaliyyətindən, əsərlərindən uzun-uzadı yazmaq olar. Sadəcə bir fakt mənə yetərli gəldi. O, savadından, bacarığından və dürüstlüyündən başqa, güvənməyə hec nəyi olmayan cəlimsiz bir gəncdən qosqoca Nadir müəllim yaradıb.

***Savadlı və ziyalı ifadələri arasındakı ucurumu öz vücudunda bütövləşdirən Nadir müəllim... Ətrafınızda belə insanlar varsa, xoşbəxtsiniz.***

Sizə çox şeylərə görə borcluyuq, sizi tanıdığımız üçün şanslıyıq. Tələbəniz olaraq böyük minnətdarlıq hissi ilə daim Uca Allaha dua edirəm.... Özünüzü qoruyun... Qoruyun ki, daha cox insanlar sizin ziyanızdan faydalansınlar...

*Hörmətlə: Tələbəniz*
*Vəzufə Xudiyeva*

# Akademik Məcid Rəsulovun anım günüdür

## 10 fevral akademik, özünün elmi istiqamətini yaratmış, riyazi fizika tənlikləri üzrə görkəmli mütəxəssis, 1960-1993-cü illərdə BDU-da Riyazi fizika tənlikləri kafedrasının müdiri olmuş, diferensial tənliklər və funksional analiz kimi sahələrdə çalışmış riyaziyyatçı-alim Məcid Lətif oğlu Rəsulovun anım günüdür

***Məcid Rəsulovun ilk elmi araşdırmaları onun 1946-1948-ci illərdə "Diferensial tənliklər üçün bəzi qarışıq məsələlərin həllinin çıxıqlar üsulu ilə araşdırılması" mövzusunda yazdığı namizədlik dissertasiyasında ümumiləşdirilmişdir.*** O, bu işdə xətti funksionalın altfəzasında bütün Banax fəzasına davamının yeganəliyinin zəruri və kafi şərtlərini almış və baxılan birölçülü xətti diferensial operatorun normallığı üçün zəruri və kafi şərti isbat etmişdir. M.Rəsulov 1960-cı ildə SSRİ EA-nın V.A.Steklov adına Riyaziyyat İnstitutunun Elmi Şurasında "Xüsusi törəməli xətti diferensial tənliklər üçün qarışıq və sərhəd məsələlərinin həllinin çıxıqlar üsulu" mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsini almışdır.

XX əsrdə xalqımızın yetişdirdiyi nadir şəxsiyyətlərdən biri olan akademikin tədqiqatlarını dörd istiqamətə ayırmaq olar: Birinci istiqamətə xüsusi törəməli diferensial tənliklər nəzəriyyəsinə dair işləri, ikinci istiqamətə isə xətti diferensial operatorların spektral nəzəriyyəsi sahəsindəki işləri aiddir. Funksional analizə aid olan üçüncü istiqamət üzrə işlərində Banax fəzasında təyin olunan xətti funksionalların normasını saxlamaqla davamının yeganəlik şərtləri isbat edilmişdir. Dördüncü istiqamət üzrə işlərində funksional analizi diferensial operatorlar nəzəriyyəsinə tətbiq etməklə adi xətti diferensial operatorun normallıq şərtini almışdır.

Məcid Rəsulov tərəfindən yazılmış və Moskvada "Nauka" nəşriyyatında nəşr edilmiş (1964) "Kontur inteqralı üsulu" adlı fundamental monoqrafiyasında 1950-1962-ci illər arası çıxıqlar və kontur inteqralı üsullarının işlənib hazırlanması zamanı alınan nəticələr öz əksini tapmışdır. Monoqrafiyanın redaktoru professor A.İ.İvanov öz rəyində yazır: "Məcid Lətif oğlu Rəsulovun monoqrafiyası riyazi ədəbiyyatda müstəsna bir hadisədir. Dünya mətbuatında buna bənzər bir kitab yoxdur. Azərbaycanın riyazi cəmiyyəti belə bir işin Azərbaycan Dövlət Universtetində yazılması ilə fəxr edə bilər". Bu monoqrafiya işıq üzü görən kimi, onun müəllifi tətbiqdə rast gəlinən bir sıra vacib riyazi fizika tənliklərinin həlli ilə bağlı işləyib hazırladığı üsullar haqqında mühazirələr oxumaq üçün Moskvaya dəvət alır. O, 1964-cü ildə ümumittifaq "Bilik" cəmiyyətinin mərkəzi lektoriyasında "Riyazi fizika tənliklərinin həllinin çıxıqlar üsulu" mövzusunda mühazirə oxuyur. 1965-ci ilin yanvarında isə "Çıxıqlar üsulu və kontur inteqralı üsulu" adlı yeddi silsilə mühazirə ilə çıxış edir.

1967-ci ildə "Kontur inteqralı üsulu" monoqrafiyası İngiltərə Kral Riyaziyyat Cəmiyyətinin sifarişi ilə ingilis dilinə tərcümə olunub və Hollandiyada, Amerika Birləşmiş Ştatlarında, Kanadada çap edilib. Qeyd edək ki, bununla da o, xaricdə monoqrafiyası çap olunan ilk azərbaycanlı riyaziyyatçı olur.

M.Rəsulovun ikitərtibli parabolik sistemlər üçün məsələlərin həllinə kontur inteqralı üsulunun tətbiqinə həsr olunmuş "İkinci tərtib parabolik sistemlər üçün məsələlərə kontur inteqralı üsulunun tətbiqi" adlı monoqrafiyası 1975-ci ildə Moskvada, SSRİ EA-nın "Nauka" nəşriyyatında çap edilmişdir. Bakıda, Azərbaycan SSRİ EA-nın "Elm" nəşriyyatında M.L.Rəsulovun 1989-cu ildə nəşr olunmuş "Çıxıqlar üsulunun diferensial tənliklər üçün məsələlərin həllinə tətbiqi" adlı üçüncü monoqrafiyası çıxıqlar üsulunun inkişafına həsr olunmuşdur. Akademik M.L.Rəsulovun rəhbərliyi altında 20-dən çox namizədlik və doktorluq dissertasiyaları yazılmış və müdafiə edilmişdir. O, bir çox orden və medallarla təltif edilmiş və 1989-cu ildə Azərbaycan SSR Əməkdar Elm xadimi fəxri adına layiq görülmüşdür.

Akademik Məcid Rəsulov 1993-cü il fevralın 11-də 77 yaşında vəfat etmişdir.

Görkəmli alim, pedaqoq, əsl ziyalı Məcid Rəsulovun əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

# BDU kollektivi şəhid məzununun ailəsini ziyarət edib

***Fevralın 8-də Bakı Dövlət Universitetinin əməkdaş və tələbələri Sosial elmlər və psixologiya fakültəsinin Vətən müharibəsində şəhid olmuş məzunu Cavid Manafovun ailəsini ziyarət ediblər.***

Əzəli torpaqlarımızın azad olunması uğrunda apardığımız 44 günlük Vətən müharibəsində Universitetimizin 17 məzun və tələbəsi şəhidlik zirvəsinə ucalmışdır. BDU kollektivi şəhid və qazi tələbə və məzunlarının xatirəsini daim əziz tutur, şəhid ailələri və qazilərlə vaxtaşırı görüşlər keçirir.

BDU-nun əməkdaşları Vətən müharibəsində rəşadət göstərərək şəhidlik zirvəsinə ucalan Sosial elmlər və psixologiya fakültəsinin 2020-ci il məzunu Cavid Manafovun doğum günü ərəfəsində ailəsini ziyarət edib. Ziyarətdə Humanitar məsələlər və gənclər siyasəti şöbəsinin müdiri Ramin Səmədov, Sosial elmlər və psixologiya fakültəsinin dekan müavini İranə Məmmədli, Tələbə Gənclər Təşkilatı və Tələbə Həmkarlar İttifaqı Komitəsinin




sədrləri və üzvləri iştirak ediblər. Tələbələr şəhid Cavid Manafovun Vətən torpağı uğrunda qəhrəmancasına vuruşub igidlik və mərdlik nümunəsi göstərərək ən uca zirvə olan - şəhidlik zirvəsinə ucalmasından qürur duyduqlarını bildiriblər. Təhsil aldığı müddətdə nümunəvi tələbə kimi seçilən Cavid Manafovun həm müəllim heyətinin, həm də tələbə yoldaşlarının qəlbində daim yaşayacağı, gələcək nəsillər üçün qəhrəmanlıq məktəbi olacağı qeyd olunub.

Şəhid Cavid Manafovun anası Natəvan Manafova bütün şəhid anaları adından göstərilən diqqət və qayğıya görə dövlət rəhbərliyinə minnətdarlığını ifadə edib və məhz ölkə başçısının apardığı uğurlu siyasətin, ordu quruculuğunun və islahatların nəticəsində torpaqlarımızın düşmən tapdağından azad olduğunu bildirib. Bu savaşda Vətən torpağı uğrunda rəşadətlə döyüşərək şəhid olan əsgərin anası kimi fəxr etdiyini deyib.

# BDU-nun ənənəvi dərslərə gələn tələbələri: hamınızı xoş gördük!

***Xəbər verdiyimiz kimi, Bakı Dövlət Universitetinin (BDU) bakalavriat və magistratura pillələrində praktiki məşğələlər tələb olunan ixtisaslarda təhsil alan tələbələr müvafiq laboratoriya və xüsusi təchiz edilmiş auditoriyalarda və onların fiziki iştirakını tələb edən fənlər üzrə ənənəvi formada tədris prosesinə cəlb olunub. 2020/2021-ci tədris ilinin II semestrində BDU-da zəruri avadanlıqlarla təchiz olunmuş tədris laboratoriyalarında karantin rejiminin tələblərinə ciddi riayət olunmaqla tələbələr dərslərdə iştirak edirlər. Laboratoriya məşğələlərində iştirak edən tələbələrlə görüşüb təəssüratlarını öyrəndik.***



***Kimya fakültəsinin II kurs tələbəsi Sevinc Həsənova:*** Əyani təhsil üçün çox darıxmışdıq. Sevincimizin həddi-hüdudu yoxdur. Qismən də olsa, ənənəvi qaydada məşğələlərə gəlmək hər birimizi sevindirir. Pandemiyanın tezliklə bitməsini elə arzulayırıq ki... Tələbə yoldaşlarımızı, əziz müəllimlərimizi yenidən bir arada görmək, onlarla canlı ünsiyyətdə olmaq inanılmaz bir hissdir. Elə bil, Universitetə yenicə qəbul olmuşuq. Nəzəri dərslərimiz yenə onlayn formada davam edir. Distant dərslərə də həvəslə qoşuluruq. Tezliklə hamını, bütün tələbə yoldaşlarımı parta arxasında görmək üçün səbirsizlənirəm.

***Biologiya fakültəsinin II kurs tələbəsi Elşən Əliyev:*** Biokimya fənni üzrə məşğələlərimizin laboratoriyada keçirilməsi bərpa olundu. Laboratoriyada praktik iş görmək, bir ildən sonra sevimli müəllimlərimizlə, qrup yoldaşlarımızla birgə təcrübələr aparmaq çox sevindiricidir. Bütün qrup yoldaşlarımızla bir yerdə olsaydıq, daha yaxşı olardı. Amma hər məşğələdə beş-altı tələbə oluruq, sosial məsafəni saxlamaq üçün növbə ilə təcrübələr aparırıq. Laboratoriyamızda bütün şərait yaradılsa da, hər yer dezinfeksiya edilsə də, yenə də otaqda az sayda tələbənin olması, sosial məsafənin gözlənilməsi ciddi şəkildə tələb edilir. Bunu da başa düşürük. Hər şey təhlükəsizliyimiz üçündür. Bilirik ki, səbr etməliyik.

***Kimya fakültəsinin II kurs tələbəsi Vüsalə Feyzullayeva:*** Ənənəvi formada dərslərdə iştirak etmək digər tələbə yoldaşlarım kimi məni də sevindirir. Tədris indi həm onlayn, həm də qismən ənənəvi formada davam edir. Cədvəllərimiz də növbəli dərs prinsipi əsasında qurulub. Məşğələ dərslərimizin xüsusi laboratoriyalarda aparılması üçün bütün şərait yaradılıb. Düzdür, bu laboratoriya təcrübələrinin videoları bizə göndərilmişdi, amma hər şeyi canlı görmək, təcrübələrdə insanın özünün necə aparması tamamilə başqa hissdir. Öz ixtisasımı daha çox sevdim.

***Biologiya fakültəsinin II kurs tələbəsi Nərgiz Məmmədova:*** Bu bir ildə onlayn dərslərimiz yaxşı səviyyədə keçirildi. Hər kəs, müəllimlərimiz, dekanımız, dekan müavinləri, tyutorlarımız, bir sözlə - hamı əlindən gələni etdi. Eynilə əvvəlki kimi, nizam-intizamla dərslərdə iştirak etdik. Biz nəzəri bilikləri elə öyrənmişik ki, indi təcrübi məşğələlərdə demək olar ki, çətinlik çəkmirik. Laboratoriyada bizim üçün müvafiq şərait yaradılıb. Hər bir ləvazimat, avadanlıq, qurğular hər şey lazımi səviyyədədir. Hiss edirik ki, müəllimlərimiz də bizim üçün darıxıb, məşğələləri elə həvəslə keçirlər ki...

***Kimya fakültəsinin II kurs tələbəsi Daşqın Abdullayev:*** Mən Universitetimizdə yaradılan şəraitdən danışmaq istəyirəm. Universitetin həyətinə girəndə artıq bütün təhlükəsizlik tədbirlərinin görüldüyünü hiss edirsən. Xüsusi dezinfeksiyaedici tuneldən keçirik, avtomatik hərarətölçən cihazlar temperaturu göstərir, maska taxmayıbsansa sənə xəbərdarlıq edir. Həyətdə, dəhlizlərdə maskanın düzgün taxılmasına, sosial məsafənin gözlənilməsinə ciddi riayət olunur. Hər yerdə COVID-19-la bağlı posterlər, göstəricilər vurulub.

Poliklinakın həkimləri müntəzəm olaraq bizimlə maraqlanır, özümüzü necə hiss etdiyimizi yoxlayırlar. Universitetimizin Psixoloji yardım sektorunun əməkdaşları da tez-tez əhval-ruhiyyəmizlə maraqlanır, bizə dəstək olmağa çalışırlar.

Hər şey yüksək səviyyədədir. Həqiqətən, universitetimizin mükəmməl bir ali məktəb olduğunu hiss edirsən. Yaradılan bu şəraitdə ən yüksək səviyyədə təhsil almaq, ixtisasımızı dərindən öyrənmək isə bizim, sadəcə, borcumuzdur. Hər kəs, müəllimlərimiz də, tələbə yoldaşlarımız da sağ olsunlar. Hamınızı xoş gördük!

# Filologiya fakültəsində görkəmli alim Əlövsət Abdullayevin xatirəsi anılıb

***Fevralın 18-də Filologiya fakültəsində görkəmli dilçi alim, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, professor Əlövsət Abdullayevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş elmi seminar keçirilib.*** Seminarda Azərbaycan dilçiliyi kafedrasının professorları - Tofiq Hacıyev, Zemfira Şahbazova və Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti Rəhilə Quliyevanın məruzələri dinlənilib.

"Microsoft Teams" platforması üzərindən təşkil olunmuş tədbiri giriş sözü ilə açan Filologiya fakültəsinin elmi işlər üzrə dekan müavini dosent Mehriban Əlizadə alimin Azərbaycan elmi və təhsili tarixində əvəzsiz xidmətləri olduğunu vurğulayıb.

Professor Tofiq Hacıyev görkəmli alimin Azərbaycan filologiyasına verdiyi dəyərli töhfələrdən, elmi yaradıcılığının əsas istiqamətlərindən, dil əlaqələri mövzusunda yazdığı əsərlərdən, bu zəngin elmi irsin aktuallığından danışıb. Professor Zemfira Şahbazova Ə.Abdullayevin yüksəkixtisaslı kadrların - türkoloqların hazırlanmasındakı xidmətlərindən, türkoloji aləmdəki yüksək nüfuzundan, türk dillərinin aktual problemlərinə həsr olunan əsərlərindən söz açıb.

Dosent Rəhilə Quliyevanın məruzəsində Ə.Abdullayevin Azərbaycan dilinin qrammatik quruluşunun, xüsusilə sintaksisinin tədqiqi və tədrisi istiqamətində gördüyü işlər ətraflı şərh olunub.

Daha sonra Azərbaycan dilçiliyi kafedrasının dosentləri – İsmayıl Məmmədov, Fikrət Şiriyev, Fikrət Əlizadə, Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrasının dosenti Əhəd Cavadov Ə.Abdullayevin alim və müəllim kimi fəaliyyətindən, dilçilik elmi qarşısındakı müstəsna xidmətlərindən, xüsusilə uzun illər rəhbərlik etdiyi Azərbaycan dilçiliyi kafedrasında yeni alimlər nəslinin yetişməsi istiqamətində gördüyü işlərdən, tələbələrinə və aspirantlarına göstərdiyi diqqət və qayğıdan söz açıb, görkəmli alimlə bağlı xatirələrini bölüşüblər.

Filologiya fakültəsinin dekanı dosent Elçin Məmmədov Ə.Abdullayevin elmi yaradıcılığının öyrənilməsinə xüsusi diqqətin göstərilməsinin və bu zəngin irsin gənc nəslə təbliğinin vacibliyini vurğulayıb, çıxışlarda qeyd olunan bir çox məqamlara aydınlıq gətirib.

*Sonda alimin ailə üzvləri adından çıxış edən qızı - BDU-nun Azərbaycan dilçiliyi kafedrasının müdiri professor Sənubər Abdullayeva atasının şəxsi keyfiyyətlərindən, dilçilikdə elmi məktəb yaratmasından danışıb, onun fəaliyyətinə verilən yüksək dəyərə, deyilən xoş sözlərə görə fakültə rəhbərliyinə və tədbir iştirakçılarına təşəkkürünü bildirib.*

# Üçrəngli bayrağa sarılan gənclik

***Bəşər övladı təbiətin "şah əsəri" hesab edilir. Bu əsərin ən şaqraq hissəsi isə gəncliyin payına düşür. Gənclik ilk növbədə dünənlə sabah arasında bir körpüdür. Körpünün möhkəmliyi isə daxilimizdəki vətənpərvərlik duyğusundan, milli-mənəvi dəyərlərə bağlılıqdan, azərbaycançılıq ideologiyasına sonsuz sadiqlikdən asılıdır.***

Əbəs yerə deyildi ki, dahi rəhbər Heydər Əliyev 1969-1982-ci illərdə respublikaya rəhbərlik etdiyi ilk vaxtlar gənclər siyasətini, çətinliklə də olsa, başlatmış, onların milli ruhda yetişməsinə çalışmış, öz qayğısını əməli işlərilə fəaliyyətinin bütün dönəmlərində davam etdirmişdir. Sovetlər dönəmində o zamankı rejimin sərt siyasətinə baxmayaraq, cəmiyyətin gələcəyini, parlaq sabahını gənclərdə görən Heydər Əliyev respublikada tədris ocaqları, hərbi məktəb açmış, yüzlərlə, minlərlə gəncin təhsil alması üçün əlindən gələni əsirgəməmişdir.

Gənclərin yüksək biliklər qazanmasında, milli ruhda, milli düşüncədə formalaşmasında müstəsna xidmətlər göstərmiş Ulu öndər Heydər Əliyev bu siyasətin həyatiliyini və yaşarlığının da özülünü hakimiyyətinin birinci ilindən qoymuşdur. "Milli azadlığa nail olmaq üçün milli oyanış, milli dirçəliş, milli ruhun canlanması lazımdır" - deyən Heydər Əliyev gənclər siyasətini ikinci hakimiyyət illərində də böyük şövqlə davam etdirmişdir.

Müasir və müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin 1993-cü ilin 22 sentyabrında ilk görüşünü məhz gənclərlə keçirdi. Həmin görüş zamanı gənclərə xitabən söylədiyi: "Azərbaycanın bugünkü gələcəyi bütövlükdə sağlam düşüncəli gənclərdir" - fikirləri gəncliyə həm rəhbər inamından irəli gəlirdi, həm də onlara dövlətçilik ənənələrini yaşatmağın çağırışı idi.

Sonrakı illərdə Gənclər və İdman Nazirliyinin yaradılması, Azərbaycan Gənclərinin Birinci



Forumunun keçirilməsi və ən nəhayət 1997-ci il 2 fevral tarixinin "Azərbaycan Gəncləri Günü" elan edilməsi Heydər Əliyevin gənclərə göstərdiyi diqqətin, qayğının bariz nümunəsi idi. Gənclər siyasətinin həyatiliyi və yaşarlığı da məhz dahi rəhbərin birinci hakimiyyəti dövründən başlamış və bugünkü günə qədər də cənab Prezidentimiz İlham Əliyevin yüksək idarəçilik bacarığı ilə özünün yüksəlişini yaşamaqdadır.

Belə ki, cənab Prezidentimiz İlham Əliyev 2005-ci il avqustun 30-da "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında" imzaladığı Sərəncam, habelə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə Sərəncam və ayrıca olaraq 2007-ci ili "Gənclər ili" elan etməsi Azərbaycan gəncliyinə göstərilən böyük qayğının, diqqətin ən yüksək göstəricisi oldu. 2011-ci il 19 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun yaradılması da bu qəbildəndir. "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi isə cənab Prezidentin gənclərə göstərdiyi diqqətin ən parlaq nümunəsidir.

2019-cu il noyabrın 26-sı Bakı Konqres Mərkəzində Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə möhtəşəm mərasim təşkil olundu. Həmin mərasimdə çıxış edən cənab Prezidentimiz İlham Əliyev üzünü çoxminli Universitet gəncliyinə - tələbələrinə tutaraq: "Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq. Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir - bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq. Elə olmalıdır ki, Azərbaycanın dövlət müstəqilliyi güclənsin" - fikirlərini söylədi.

Bu məqamda elə həmin ilin bu günü Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısında nitq söyləyən Prezident İlham Əliyevin: "Gənclərimiz torpaq uğrunda, Vətən uğrunda vuruşurlar. Şəhidlərimizin böyük əksəriyyəti gənclərimizdir. Gənclərimiz hərbi qələbələri şərtləndiriblər və Aprel döyüşləri şanlı tarixi qələbəmizdir" - sözlərini xatırlayaq. Həqiqətən də gənclərimiz 2020-ci ilin Vətən müharibəsində də ordumuzun şəxsi heyətinin əksəriyyətini təşkil etməklə bu müqəddəs müharibədə böyük pay sahibi oldular. Gənc ərənlərimiz düşmən tapdağından azad olunan hər qarış torpaqda üçrəngli qələbə bayrağımızı müqəddəs yurd yerlərimizə sancaraq: "Qarabağ Azərbaycandır!" - dedilər.

Azərbaycan gəncliyi hər zaman öz dövlətinə, rəhbərinə sonsuz tellərlə bağlıdır. 2021-ci il – Nizami Gəncəvi ilində dahi söz ustadının bugünlə səsləşən: "Çalış öz xalqının işinə yara, geysin əməlindən dünya zərxara" - misralarını həm özüm, həm də bütün gənclər üçün xitab edərək misal çəkməyi özümə borc bildim.

***Gəncliyimiz mübarək!***

***Əsgər İsmayılov,***
*Jurnalistika fakültəsinin tələbəsi*

# BDU alimi beynəlxalq konfransda məruzə edib

Mexanika-riyaziyyat fakültəsinin Riyazi analiz kafedrasının professoru Ziyatxan Əliyev fevralın 8-də beynəlxalq konfransda məruzə ilə çıxış edib. "Funksiyalar nəzəriyyəsinin müasir metodları və onlarla əlaqəli məsələlər" mövzusunda keçirilən konfrans Rusiya Federasiyasının Voronej Dövlət Universiteti, M.V.Lomonosov adına Moskva Dövlət Universiteti və Rusiya Elmlər Akademiyasının V.A. Steklov adına Riyaziyyat İnstitutunun birgə təşkilatçılığı ilə "Voronej qış məktəbi" layihəsi çərçivəsində baş tutub. Zoom platforması üzərindən təşkil olunan konfransda Rusiya, ABŞ, Fransa, Almaniya, Qazaxıstan və digər ölkələrin tanınmış alim-tədqiqatçıları məruzə ediblər.

Z.Əliyev konfransda "Operatorların spektral nəzəriyyəsi və sərhəd məsələləri nəzəriyyəsi" bölməsində "Sərhəd şərtlərinə spektral parametr daxil olan dördüncü tərtib adi diferensial operatorların məxsusi funksiyaları üzrə ayrılışlarının müntəzəm yığılması" adlı təqdimatla çıxış edib. Məruzədə sərhəd şərtlərinə spektral parametr daxil olan məsələlərin tarixi, əldə olunan nəticələr və bu sahədə qarşıya çıxan çətinliklər haqqında geniş məlumat verilib. Əldə olunan nəticələr şərh edilərək konfrans iştirakçılarının sualları cavablandırılıb.

# BDU tələbəsi təqaüdə layiq görüldü



Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin kompyuter elmləri ixtisası üzrə təhsil alan III kurs tələbəsi Aygün Məmmədova Lütfi Zadə İrsi və Süni İntellekt Assosiasiyası ilə "AzEdu Academy"nin ortaq layihəsi olan Lütfi Zadə adına təqaüdə layiq görülüb.

İstedadlı tələbələrə dəstək olmaq və məşhur alim Lütfi Zadənin xatirəsini yaşatmaq məqsədilə təsis edilən təqaüd texniki və texnoloji ixtisaslar üzrə bakalavriat səviyyəsində təhsil alan, birinci Qarabağ və Vətən müharibəsində şəhid və ya qazi olan şəxslərin övladları, həmçinin sosial təminatı aşağı olan tələbələr üçün nəzərdə tutulub. Aygün İlkin qızı Məmmədovanın atası birinci Qarabağ müharibəsi qazisidir.

# Dünya Xərçəng Gününə həsr olunmuş tədbir keçirilib



***Biologiya və Kimya fakültələrinin Tələbə Gənclər Təşkilatlarının (TGT) birgə təşkilatçılığı ilə Dünya Xərçəng Gününə həsr olunmuş onlayn tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə açan Biologiya fakültəsinin dekanı vəzifəsini icra edən Səbinə Ömərova dünya ictimaiyyətinin diqqətini xərçəng xəstəliyi ilə mübarizəyə cəlb etmək məqsədilə bütün dünyada 4 fevral tarixinin hər il Dünya Xərçəng Günü kimi qeyd edildiyini vurğulayıb.

Kimya fakültəsinin dekan müavini Taleh Qəhrəmanov Dünya Xərçəng Gününün qeyd edilməsində əsas məqsədin dünya ölkələrinin diqqətini bu ictimai səhiyyə probleminə cəlb etmək və xərçəng xəstələri ilə mübarizənin yalnız birlikdə aparıldıqda effektiv olmasını bir daha dünya ictimaiyyətinə xatırlatmaq olduğuna diqqət çəkib.

Tədbirdə xərçəng xəstəliyinin profilaktikası, erkən diaqnostikası və müalicəsi, yaranma səbəbləri, xəstəliyin inkişaf dinamikası barədə məlumat verilib.

Sonda Biologiya fakültəsi TGT sədri Vüsal Məmmədrəhimov, sədr müavini Fatma Seyidzadə və Kimya fakültəsi TGT sədri Əli Qədirli, idarə heyəti üzvü Solmaz Məmmədli xərçəng xəstəliyi anlayışı barədə fikirlərini bölüşüblər.

# "BDU könüllüləri" qaliblər sırasında



***Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Bir" tələbə-könüllü proqramının təşkilatçılığı ilə 2 fevral - Azərbaycan Gəncləri Gününə münasibətilə tələbə-könüllülər üçün "Gəncliyin BİR həftəsi" layihəsi çərçivəsində kvest oyunu keçirilib.***

"Code Tusi" intellektual kvest oyununda 150 tələbə-könüllünün üzv olduğu 15 komanda iştirak edib. Oyunun nəticələrinə görə, "Shakedowns" komandası birinci, Bakı Dövlət Universitetinin tələbələrindən ibarət "BDU könüllüləri" komandası isə ikinci yerə layiq görülüb. **Qalibləri təbrik edirik!**

REKTORLARIMIZ...

## O, yaddaşlara xeyirxahlığı ilə həkk edildi

***"Bu gün Bakı Dövlət Universitetinin keçdiyi tarixi yola nəzər salarkən belə bir qənaətə gəlmək olur ki, Azərbaycanın bu gününü, onun dünya şöhrətli elmini, mədəniyyətini, alimlərini, iqtisadiyyatını, bütövlükdə müasir Azərbaycan cəmiyyətini bu elm məbədgahından ayrılıqda təsəvvür etmək qeyri mümkündür".***



*Mehdi Əliyev*

***1960-cı ilin əvvəllərindən SSRİ ərazisində ictimai-siyasi mühitdə nisbətən yeni bir dövr başladı. Bu proses cəmiyyətin ideologiyalaşdırılmasında özünü daha qabarıq büruzə verirdi. Cəmiyyətin mənəvi cəhətdən təkmilləşməsinə cəhd olsa da, bu, Stalin dövründə yetişmiş nəsil tərəfindən o qədər də yaxşı alınmırdı.*** Çünki 1930-1940-cı illərin terroru ən yaxşı insani keyfiyyətləri məhv etmiş ictimai şüuru deformasiyaya uğratmışdır. Ölkə ərazisində qəbul edilən bütün qanun və qərarlarda qorxu, icraçılığın lazımi səviyyəsinin saxlanması ideyası həmin qərarların leytmotivi idi. Marksist-leninçi təhsil sistemi adlandırılan nəzəriyyənin şüurlara yeridilməsi öz işini görmüşdü. Təbii bu prosesdə ölkəmizdə fəaliyyətdə olan ali məktəblər böyük rol oynayırdı. Məsələn, BDU-da 1966-1967-ci tədris ilində marksizm-leninizmin əsasları üzrə 14 nəzəri seminar və 3 məktəb fəaliyyət göstərirdi. Bu seminar və məktəblərdə 535 nəfər məşğul olurdu. Bunun üçün partiya komitəsi nəzdində xüsusi qruplar fəaliyyət göstərərək, müntəzəm olaraq siyasi tərbiyə mövzusunda mühazirələr, söhbətlər aparırdılar. Sənədlərdən belə aydın olur ki, bu prosesə Mərkəzi Komitə çox ciddi nəzarət edib.

Odur ki, 1960-1970-ci illərin qovuşuğunda ölkənin ali məktəblərində kommunist tərbiyəsinə "kompleks münasibət" adlanan münasibət tətbiq olunmağa başlamışdı. Yüksək ixtisaslı elmi-pedaqoji kadrları olan BDU 1960-cı illərin axırında və 1970-ci illərin əvvəllərində bütün tədris dövrü üçün işlənib hazırlanmış kompleks kommunist tərbiyəsi planı əsasında tələbələrlə tərbiyə işinin təşkilinə keçdi. Hökumət bununla da sübutsuz-dəlilsiz iddia edirdi ki, başdan-ayağa itaətkarlıqla, özbaşınalıqla, mənəvi əxlaqsızlıqla zəngin olan kommunist tərbiyəsinə ehtiyacımız var və bu ehtiyacı aradan qaldırmaq üçün simasızlaşdırılmış, quru rəsmiyyətçi halını almış sosial-iqtisadi mexanizm üçün etibarlı, işlək vintcik hazırlamaq lazım idi.

***Belə bir vaxtda 3 fevral 1965-ci ildə BDU-ya Mehdi Sadıq oğlu Əliyev rektor təyin edilir. BDU-ya rəhbərlik etdiyi illər (1965-1970-ci illər) ərzində onun üçün əsas meyar millətin maarif, mədəniyyət və elminin ulu təməli üzərində qurulmuş elm məbədinin saflığını, varlığını qoruyub saxlamaq olub.*** Odur ki, bu gün onunla eyni zamanda universitetdə çalışan hər kəsdən "qəbri nurla dolsun, Mehdi müəllimin öz idarəçilik sistemi var idi" sözlərini eşitdim. Kollektiv arasında əhval-ruhiyyənin sağlamlaşmasında ciddi dönüş yaratmış, yüksək intellekt səviyyəsi və xoş rəftarı ilə yaddaşlara həkk olmuş Mehdi müəllim deyilənə görə, təbiətən sadə, təvazökar bir insan olub. O, BDU-nun yetirməsi olduğu üçün kollektivi yaxından tanıyırdı. Kimin baş işlətdiyini, kimin də "baş kəsdiyini" çox yaxşı bilirdi... Repressiya dövründə yüzlərlə vətənpərvər, millətsevər professor, müəllim, işçi və tələbəyə "xalq düşməni", "türkçü-turançı" damğasının vurulmasında kimlərin əlinin olduğunu da unutmamışdı. Çünki bu zaman həm Universitetin tələbəsi, həm də müəllimi olub.

Mehdi Sadıq oğlu Əliyev 1907-ci ildə Gəncədə ziyalı ailəsində anadan olub. İlk mədrəsə təhsili alan Mehdi sonra Gəncə gimnaziyasında oxuyub. 17 yaşında gimnaziyanı bitirən Mehdi Əliyev Gəncədə pedaqoji fəaliyyətə başlayıb. Amma gənc müəllim öyrətməklə yanaşı, özü də elmin çətin sirlərini öyrənmək arzusunda idi. Odur ki, 1925-ci ildə Bakıya gəlir və BDU-nun Fizika-riyaziyyat fakültəsinə daxil olur. 1930-cu ildə təhsilini başa vuran gənci Azərbaycan Dövlət Pedaqoji İnstitutuna dekan təyin edirlər. 1933-cü ildə Mehdi müəllim dosent adına layiq görülür. O, 1935-ci ilə kimi burada işləyir və öz xahişi ilə yenidən BDU-ya qayıdır və 1944-cü ildə təhsil aldığı fakültəyə dekan seçilir. Gənc alim 1952-ci ildə BDU-ya prorektor təyin edilir. Həmin il onun təşəbbüsü ilə BDU-da Fizika-riyyaziyyat fakültəsində Molekulyar fizika kafedrası yaradılır və o, 16 il kafedraya rəhbərlik edir. 1962-ci ildə ADPİ-yə rektor təyin edilən Mehdi müəllim 1965-ci ilin əvvəllərinə kimi bu vəzifədə çalışır və elə həmin ilin 3 fevralından BDU-ya rəhbərlik etməli olur. Beləliklə, Mehdi müəllim 1970-ci ilin əvvəllərinə kimi BDU-nun rektoru vəzifəsini icra edir.

***BDU-nun 50 illik yubileyi onun rektor olduğu dövrə təsadüf edir. Dövri mətbuatda çap olunan məqalələr bir daha sübut edir ki, yubiley ölkəmizdə təntənəli bir şəkildə qeyd edilib. SSRİ Ali Soveti Rəyasət Heyəti Universitetin elm və təhsil sahəsindəki xidmətini " Qırmızı Əmək Bayrağı" ordeni ilə qiymətləndirib.***

Yubiley ərəfəsində Universitetin həyatında bir çox mühüm hadisələr baş verib. Məsələn, 1968-ci ilin sonlarında Şimali Vyetnamdan 110 tələbə və aspirant Universitetə gəlib və onların gəlişi ilə xarici tələbələrin təhsili üzrə fakültə fəaliyyətə başlayıb. Əlbəttə, Universitetdə fəaliyyətdə olan fakültələrin təhsil həyatında laboratoriyalar çox ciddi rol oynayırlar. 1969-cu ildə 25 tədris və 11 elmi-tədqiqat laboratoriyası mövcud idi. 1968-ci il aprelin 1-dən yuxarı təşkilatların qərarına əsasən Fizika fakültəsində Yarımkeçiricilər fizikası elmi-tədqiqat laboratoriyası yaradıldı. Bir faktı da qeyd etmək yerinə düşərdi ki, müstəqil Fizika fakültəsinin yaranması və inkişafı Azərbaycanın görkəmli fiziklərindən olan Mehdi Əliyevlə yanaşı R.H.Həsənov, K.Ş.Köçərli, A.İ.Muxtarov və A.M.Rəsulovun adı ilə bağlıdır. M.Əliyevin Universitetə rəhbərlik etdiyi zaman bir çox uğurlara imza atıldı. 1966-cı ildə hesablama mərkəzinin ştatı xeyli artırıldı. O, öz fəaliyyət dairəsini genişləndirdi və üç istiqamətdə inkişaf etdirməyə başladı. Onun fəaliyyət istiqamətlərindən biri tədris-pedaqoji cəhəti əhatə edir, yəni proqramçılar və operator hazırlanmasını nəzərdə tuturdu.

***Mehdi müəllim həm də nüfuzlu alim idi. O, bəzi torpaq elementlərinin fiziki xassələrinin tədqiqinə aid böyük praktik əhəmiyyətə malik elmi-tədqiqat işləri ilə məşğul olub.*** Onlarla elmi məqaləsi respublikada və xaricdə çıxan nüfuzlu elmi jurnallarda çap olunub. O, tələbələri üçün çox vacib olan dərs vəsaitlərini və dərslikləri rus dilindən Azərbaycan dilinə tərcümə edib. Deyilənə görə, Mehdi müəllimin özünəməxsus mühazirə demək üsulu olub. O, mühazirəyə başlamazdan əvvəl auditoriyada xoş əhval-ruhiyyə yaradar, bütün tələbələrin diqqətini özünə cəlb edər və sonra yazı lövhəsinin qarşısına keçərmiş.

Ömrünü elmin inkişafına, xeyirxah əməllərə həsr edən Mehdi müəllim 1970-ci ildə dünyasını dəyişib. Bu gün onu yad edəndə ilk yada düşən yaxşı əməlləri oldu. Mehdi müəllim haqqında yazarkən qədim yunan filosofu Demokritin "İnsan öz gözündə deyil, başqalarının gözündə yüksəlməlidir" kəlamını xatırladım. Ruhun şad olsun, başqalarının gözündə yüksəlməyi bacaran insan!

***Qərənfil Dünyaminqızı,***
*Milli mətbuat tarixi kafedrasının dosenti*

# BDU-nun elan etdiyi "İlin gənc alimi" müsabiqənin qalibləri açıqlandı

***Bakı Dövlət Universitetində 2 Fevral - Azərbaycan Gəncləri Gününə həsr olunmuş tədbirdə "İlin gənc alimi" müsabiqəsinin qalibləri elan olunub.***









Müsabiqə Komissiyasının qərarına əsasən Fizika fakültəsinin Nanomaterialların kimyəvi fizikası kafedrasının müəllimi Həbibə Şirinova təbiət və texnika elmləri üzrə, Hüquq fakültəsinin Konstitusiya hüququ kafedrasının dosenti Aytəkin İbrahimova humanitar və ictimai elmlər üzrə ən yüksək nəticə göstərərək müsabiqənin qalibi olublar. Müsabiqənin qalibləri diplom və hər biri 2 000 (iki min) manat pul mükafatı ilə, müsabiqədə ikinci nəticə göstərənlər - Kimya fakültəsinin Sənaye kimyası elmi-tədqiqat laboratoriyasının kiçik elmi işçisi Hacı Vahid Axundzadə və Filologiya fakültəsinin Türkoloji araşdırmalar elmi-tədqiqat laboratoriyasının kiçik elmi işçisi Pərvin Eyvazov isə diplomla təltif ediliblər.

## Fizika fakültəsində vebinar keçirilib

***Fizika fakültəsində Tələbə Gənclər Təşkilatının (TGT) təşkilatçılığı ilə "Emosiyalarımızı necə idarə edək?" adlı vebinar keçirilib.*** Vebinarın moderatoru, fakültə üzrə TGT sədrinin müavini Ləman Pənahova emosiyaların idarə edilməsinin əhəmiyyətindən danışıb, tədbir haqqında qısa məlumat verib.

Vebinarın təlimçisi, gənc sahibkar, karyera psixoloqu Orxan Mahmudov iştirakçılara emosiyaların necə idarə edilməsi haqqında geniş məlumat verib, depressiya, narahatlıq və stresin davranış, başqa insanlarla münasibətlərə təsir göstərən amillər olduğundan bəhs edib. Bildirib ki, emosional zəkadan istifadə etməyin vacibliyini anlamaq, cəmiyyətdə qarşılıqlı münasibətlərin idarə edilməsi üçün uyğun mühit yaratmaq və vacib məsələlərin həllində uyğun yanaşma tərzi tətbiq etməklə emosiyaların idarə edilməsi mümkündür.

Tələbələrin mövzu ətrafında müzakirəsi ilə davam edən tədbirdə iştirakçıların sualları cavablandırılıb.

## Kimya fakültəsində TGT idarə heyətinin iclası keçirilib

***Kimya fakültəsində Tələbə Gənclər Təşkilatı idarə heyətinin onlayn iclası keçirilib. İclasda Kimya fakültəsinin dekan müavini Taleh Qəhrəmanov TGT-nin tələbələrin tədris və təlim prosesindəki rolu və fəaliyyət istiqamətləri haqqında məlumat verib.*** Kimya fakültəsi Tələbə Gənclər Təşkilatının sədri Əli Qədirli 2020/2021-ci tədris ilində təşkilatın altı aylıq hesabatını təqdim edib və qarşıda duran layihə və tədbirlər haqqında idarə heyətini məlumatlandırıb. İclasda Kimya fakültəsində Tələbə Gənclər Təşkilatı nəzdində yaranacaq yeni klubun - "Young chemists club"ın ("Gənc kimyaçılar" klubu) təqdimatı keçirilib.

Klubun yaradılmasında məqsəd BDU-da kimya mühəndisliyi və kimya müəllimliyi ixtisası üzrə təhsil alan tələbələrin intellektual səviyyəsini yüksəltmək və onlara təcrübə qazandırmağı nəzərdə tutan dünyada gedən proseslər çərçivəsində seminar, disput və konfranslar təşkil etməkdir. Eyni zamanda klubun fəaliyyəti çərçivəsində tələbələrin təşkil olunmuş beynəlxalq tədbirlərdə iştirakını təmin etmək, neft-kimya müəssisələrini ziyarət edib iş təcrübələrini öyrənmək, elmi və əyləncəli tədbirlər təşkil etmək, müxtəlif mükafatlı müsabiqələr həyata keçirmək, xarici universitetlər və şirkətlərlə əməkdaşlıq edərək tələbələrin inkişafına dəstək olmaqdır.

# Əsgər dostlarını xilas edərkən şəhid olan Cavid



**Cavid 2016-cı ildə yüksək balla Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsində tələbəlik həyatına başlayıb. Məzun olduqdan sonra hərbi xidmətə yollanıb**

*Geridə qoyduğumuz Vətən müharibəsi Azərbaycanın Zəfər salnaməsi oldu. Əlbəttə, tarixə qızıl hərflərlə düşən və gələcəkdə haqqında çox danışılacaq bu günlərin ən böyük qəhrəmanları döyüşçülərimizdirlər. Biz televizor, kompüter arxasında cəbhədən yeni bir xəbər gözləyərkən onlar addımbaddım irəliləyirdilər. Şübhəsiz, ən böyük çətinlik isə itkilər idi. Rəsmi məlumatlara görə Zəngilanda, Cəbrayılda, Füzulidə, Şuşada...və ayrı-ayrı digər yerlərdə 2873 hərbi qulluqçumuz şəhid olub. Hər birinin ruhu şad olsun!*

**Qəhrəmanlarımızı ictimaiyyətə tanıtmaqda davam edirik. Bu dəfə növbəti şəhid Cavid Manafovun dayısı qızı Nigar İbrahimova ilə söhbətləşdik. O, hərbi qulluqçumuz barədə bunları söylədi:**

Cavid 1999-cu ildə Bakıda anadan olub. 2005-ci ildə Heydər Əliyev adına liseyin birinci sinfinə qəbul olunub. 2016-cı ildə həmin məktəbi bitirib və yüksək balla Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsində tələbəlik həyatına başlayıb. Məzun olduqdan sonra hərbi xidmətə yollanıb. Müharibə başlayan gündən Füzuli uğrunda gedən döyüşlərdə böyük şücaət göstərib. Həmçinin Cəbrayıl və Zəngilandakı hərbi əməliyyatlarda da iştirak edib. Cavid Qrad koordinaotoru idi. Komandirləri ondan çox razı idilər".

***N. İbrahimovanın sözlərinə görə, o, özü şəhid olsa da, bir neçə döyüş yoldaşının həyatını xilas edib:***

"Cavidlə sonuncu telefon danışığımız oktyabrın 30-da olub. Anasına demişdi ki, hər şey yaxşı olacaq, nigaran qalma. Dörd gün heç bir xəbər ala bilmədik. Noyabrın 3-də Müdafiə Nazirliyinin qaynar xətti ilə əlaqə saxladıq. Yaralının hazırda neyrocərrahiyyə klinikasında müalicə aldığını bildirdilər. Ayın yeddisinədək əcəllə mübarizə aparsa da, bu dəfə məğlub oldu.

Həkimlər onu həyatda saxlaya bilmədilər. Sonradan öyrəndik ki, sən demə, oktyabrın 31-də Zəngilan-Qubadlı istiqamətində əməliyyatlar davam edərkən düşmən Qrad-21 maşınını vurub.

Cavid komandirini və əsgər dostlarını xilas edərkən dalğanın təzyiqi onun özünü çox güclü zərbə ilə kənara atıb. Nəticədə ağır kəllə-beyin travması alıb.

Füzulidə ilkin tibbi yardım göstərilib. Sonra isə Bakıya-neyrocərrahiyyə klinikasına gətirilib və əməliyyat olunub. Nə deyək, vətən sağ olsun. Prezident, Ali Baş Komandan İlham Əliyev sağ olsun ki, digər şəhidlərimiz kimi onu da unutmadı. Müvafiq Sərəncamla Cavid ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olundu.

Bibim oğlunun həyatını xilas etdiyi komandir də əsgəri haqqında yüksək fikirdədir. O, bizimlə telefon danışığında Caviddən həmişə razı qaldığını və şəhidimizi "mənim kompüterim" adlandırdığını deyib".

*"Bakı Universiteti"*

# BDU-da "Gənc İntellektuallar Məktəbi" layihəsi

## Universitetin Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə "Gənc İntellektuallar Məktəbi" layihəsinin ilk təlimi keçirilib

***Təlimçilər BDU THİK-in sədri Hacıbaba Mustafayev və BDU üzrə Sabah Mərkəzi rəhbərinin müavini Gündüz Camalzadə olub.***

Fevralın 1-də keçirilən ilk təlim Universitetin birinci kurs tələbələri üçün təşkil olunub. Təlimdə 2 Fevral - Azərbaycan Gəncləri Günü, dövlətimizin gənclərə göstərdiyi diqqət və qayğı, eyni zamanda tələbə-gənclər üçün BDU-da yaradılan imkanlardan bəhs edilib. Hazırda tələbə-gənclərin yüksək vətəndaşlıq mövqeyi, ölkənin ictimai-siyasi həyatında fəallıq və yüksək vətənpərvərlik nümayiş etdirdiyi qeyd olunub, tələbələrin özlərinin inkişafı barəsində və asudə vaxtlarının səmərəli təşkili haqqında tövsiyələr verilib.

Təlimlərin keçirilməsində əsas məqsəd tələbələrə özünü inkişaf etdirməyin yollarını izah etmək, onların yeni bilik və bacarıqlar əldə etməklə dövlətimiz və cəmiyyətimiz üçün peşəkar kadr kimi yetişməsinə töhfə verməkdir.

# 21 fevral Beynəlxalq Ana Dili Günüdür

*Ey türk oğulları, vətənin bir ovuc torpağını dünyanın var-dövlətinə, dilimizin bir sözünü ləl cavahirata dəyişməyin.*

*Şah İsmayıl Xətai*

***1952-ci il Banqladeşin Benqal şəhərində öz ana dilinin rəsmi dil olması uğrunda mübarizə aparan 4 tələbənin öldürüldüyü 21 fevral 1999-cu ilin noyabrından Banqladeş səfirinin təşəbbüsü, YUNESKO-nun qərarı ilə dünyada Beynəlxalq Ana Dili Günü kimi qeyd olunur.***

İnsanı digər canlılardan fərqləndirərək sözü, dili ona əmanət edən tanrı sözün qüdrətini dərk edib dəyərləndirənləri onun vasitəsilə əbədiyaşarlıqla mükafatlandırır. Xalqın varlığını sübut edən, onu yaşadan, maddi və mənəvi irsini qoruyan, inkişaf etdirən, ünsiyyəti təmin edən ən mühüm vasitə olan ana dili mənəvi aləmimizi zənginləşdirən, keçmişimizi bu günə, bu günü gələcəyə çatdıran, dünyagörüşümüzü artıran müqəddəs dəyərdir:

*Vətənimin tarixini yaşadan,*
*Nə yaxşı həyatda mənim varımsan.*
*Səninlə fikrimi bəyan eylədim,*
*Dünənim, bu günüm, xoş sabahımsan.*

1995-ci ildə qəbul edilən Konstitusiya ilə dövlət dilimizin adının bərpasından sonra dilimizin qorunması, inkişafı istiqamətində dövlət səviyyəsində əhəmiyyətli qərarlar qəbul edilmişdir.

**"Millətin milliliyini qoruyub saxlayan onun dilidir"- deyərək onu yüksək qiymətləndirən, doğma dildə danışmağı fəxr bilən, hər bir Azərbaycan gəncinin çox dil bilməsini, lakin ilk növbədə öz ana dilini mükəmməl bilməsini arzu edən ümummilli lider Heydər Əliyevin 2001-ci il 18 iyulda "Dövlət dilinin tətbiqi" haqqında fərmanı təhsilin, mətbuatın, rəsmi yazışmaların və çıxışların Azərbaycan dilində olmasına dair verilmiş, dilimiz minillik tariximizin bütün incəliklərini ifadə edən, təqib və təzyiqlərə müqavimət göstərən, zəngin yazılı və şifahi ədəbiyyatı olan dil kimi dəyərləndirilmişdir.**

2001-ci il 9 avqust tarixli Azərbaycan əlifbası və dili gününün təsis edilməsi haqqında fərmana əsasən hər il 1 avqust respublikamızda Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilir. 2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun qəbul edilməsi, Prezident İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli Sərəncamı, "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında", "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamları, "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərmanı və bu istiqamətdə görülən digər işlər dilimizə diqqət və qayğının təzahürüdür. ***Prezident İlham Əliyev ana dilini yüksək qiymətləndirib xalqın inkişafında böyük rolu olduğunu vurğulayır: "Xalqımızı xalq kimi, millət kimi qoruyub saxlayan bizim ənənələrimiz olub, tariximiz olub, ədəbiyyatımız, ana dilimiz və mədəniyyətimiz olub".***

Dil mədəniyyət, mədəniyyət yüksəlişdir. Dilimiz varlığını qorumaq üçün mübarizə aparmış, inkişaf edərək söz sənətinin, qüdrətli sənətkarların, mütərəqqi mədəniyyətin, çoxsahəli dünyəvi elmin dili səviyyəsinə yüksəlmişdir. Xalqımız əsrlər boyu mənəviyyatımızın, ədəbiyyatımızın, adət-ənənələrinin ifadə vasitəsi olan doğma dilimizi qoruyub bizə əmanət edib. Onun saflığını qorumalı, bizə etibar edilən əmanəti gələcək nəsillərə çatdırmalıyıq. Bu, ilk növbədə tədris müəssisələrində reallaşdırılmalıdır. Dilimizə, milli-mənəvi dəyərlərimizə hörmətlə yanaşan, sevərək təbliğ edən, bu istiqamətdə silsilə işlər görən bir əsrdən çox yaşı olan universitetimiz bu gün də ənənəsinə sadiq olub mübarizə meydanının ön sıralarındadır. Yalnız Filologiya və Jurnalistika fakültələrində deyil, digər fakültələrdə də ana dilinin dərindən öyrədilib uğurlu şəkildə istifadəsinin intensivləşdirilməsi istiqamətindəki işlər təqdirəlayiqdir. BDU-da təhsil alan əcnəbi tələbələrin dilimizə diqqət və marağı, onu öyrənmək həvəsi bizi qürurlandırır.

Universitetimiz müxtəlif dillərin öyrənilməsinə böyük əhəmiyyət verməklə yanaşı, dilimizin saflığının qorunması, dövlətçilik ənənələrimizə bağlılıq məsələlərinə də diqqət edir. "Bakı Universiteti" də bu mövzuya həssaslıqla yanaşır, müəllimlərimizin bizə öyrətdiyi tanrı qüdrətinin ərməğanı, Dədə Qorqud əmanəti, Füzuli zirvəli, Vaqif vüqarlı, sevərək öyrədilən, zənginliyindən bəhrələnib həvəslə sevdirilən dilimizin uğurlu tətbiqinə dair məsələlərin işıqlandırılmasına daim diqqət göstərir.

***İlahə Dadaşova,***
*filologiya üzrə fəlsəfə doktoru*


**Buraxılışa məsul:** Afaq Sadıqova

**Redaksiya heyəti** Əliş Ağamirzəyev, Vüqar Əliyev, Cahangir Məmmədli, Həmid Vəliyev, Allahverdi Məmmədli, Nəsir Əhmədli

**Dizayn - tərtibat:** Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin mətbəəsində çap olunmuşdur.

**Çapa imzalanıb:** 26.02.2021

**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.